# QORDİ DÜYÜNÜMÜZ

## *Qarabağ problemi dünyaya beynəlxalq hüququn və müasir piarın məntiqi ilə təqdim olunmalıdır*

Universitetdə çoxdan tanıdığım yaşlı müəllim həmkarım mənə bir qəzet göstərdi. O, həmin qəzetin qoşa səhifəsində I Pyotrun vəsiyyətləri və Rusiyaya işğalçılıq marşrutunu göstərən, bu vəsiyyətə poetik nifrəti nəzmə çəkən felyetonvari həcvi oxuculara təqdim etmişdi. Daha çox ədəbiyyat yönümlü və məhdud tirajlı bir qəzetdə özünün qısa giriş məqaləsi ilə çap olunmuş bu materiala görə müəllim yaman sevinirdi. Pyotru və Rusiyanı «ifşa etməsindən» elə şövqlə, elə səmimi və elə məmnunluqla danışırdı, yazıdakı bəzi məqamları oxuyub elə köhnə izahlar verirdi ki, az qala mən onun bu məsələləri, sanki birinci dəfə - indi eşitdiyinə inanacaqdım...

* * *

Xalq hərəkatının başlandığı ilk dövrlər, emosional dalğaların şahə qalxdığı məqamlar yadıma düşdü.

Onda da emosiyalar üzdə idi, hər şeydə bir nizamsızlıq hökm sürürdü. Ağıl sükuta dalmışdı, hayqırtılar onun səsini batırmışdı. Tarixi və siyasəti bilən də, bilməyən də həqiqətə iddialı idi. Keçmişə aramsız yürüşə çıxanlar tarixdən adda-budda hadisələr qoparıb «təhlil» edir, ayrı-ayrı epizodlar haqqında «dahiyanə» mühakimələr yürüdürdülər. Adamlar keçmişdə olan ədalətsizlikləri bu gün, uzağı sabah düzəltmək eşqinə düşür, bütün bunlardan Avropanın, demokratik dünyanın xəbərsiz olduğuna səmimi şəkildə inanırdılar.

Məmləkətdə «dərdlərimizi bütün dünyaya çatdırmalıyıq» deyən psevdo



vətənpərvərlərin və «tarixçi» üləmaların əlindən tərpənmək olmurdu. Mediada yerli gölməçələrdə fırtına yaradan həmin adamların yazılarına gen-bol yer verir, onların palaz-palaz yazılarını çap edirdilər. Sonra elə bil qurbağa gölünə daş atdılar, qəribə bir susqunluq yarandı. Zaman çox suları durultdu, çox qaranlıqlara işıq salıb künc-bucaqları aydınlatdı, çox üzlərdəki maskaları yırtdı. Tədricən çox şeylər öz yerini tutdu, amma «dərdlərimizi, faciələrimizi dünyaya necə çatdıraq?» sualına cavab tapa bilmədik. Bəli, XX əsr Azərbaycan üçün faciələr, fəlakətlər əsridir, küncə qısnanan, haqqı və heysiyyəti tapdanan, itirə-itirə gedən, amma başına gələnlərdən ibrət dərsi almadığı bir uğursuzluq zolağıdır. Əsrlər boyu nəfsinə hakim ola bilməyən və bunun acısını yaşayan bir toplum milli taleyi ilə bağlı həqiqətləri indi-indi dərk edir. Dərk edir ki, milli mövcudluq və dünyaya qovuşmaq uğrunda kəskinləşən mübarizədə işıqlı dünyaya düşmək üçün biz həmin dünyanın dilində danışmağı bacarmalıyıq. Bunun üçün də demokratiyaya yönəli bilgi və davranışları mənimsəməli, özümüzü təqdim və təbliğ etməyin fərqli texnologiyalarını öyrənməliyik. Son illərdə Xocalı soyqırımı ilə bağlı Rusiya, Avropa və Amerikada «Xocalıya ədalət» şüarı ilə aparılan genişmiqyaslı və uğurlu kampaniya bizi bu barədə daha dərindən düşünməyə vadar edir.

1918-ci ilin martındakı kütləvi qırğınlar, Zəngəzur qətliamları, Qarabağ problemi, Xocalı soyqırımı, Ağdaban, Cəmilli faciələri bizim milli dərdlərimizdir və bunların dünyaya çatdırılması vacibdir. Amma necə?! Kimlərisə söyüb-qarğıyıb ağlamaqlamı? Təbii ki, faciə qurbanlarını yad edib göz yaşları tökmək, insanın dərdini bir anlıq yüngülləşdirir, amma dünyanın ürəyini yumşaltmır. Dünya ağlamağı çoxdan tərgidib, kövrək hisslərin yerini çoxdan hüquqi formullar, hər halda, qanun və məntiq havasına köklənmiş düşüncə tərzi tutub. Üzdə olan bunlardır, alt qatda isə xristian təəssübkeşliyi və siyasi maraqlardır. Biz özümüzdə təpər tapıb Şərq müdrikliyini və dağınıq düşüncə tərzimizi Qərbin işgüzar təfəkkürü və çevik piar texnologiyaları ilə birləşdirməliyik. Lirik məzmunlu fəryad bəyanatları, köhnə ifşa tərzi və duyğusallıq burada keçərli deyil.

Ötən əsrin əvvəllərindən şüurlarımızda tüğyan edən, elə indi də ara-sıra bəzi nadanların yaraşığı olan kortəbii vətənpərvərliklə uzağa gedə bilmərik. Biz milli problemlərimizi dünyaya çatdırmağın yeni metodlarını hazırlamalıyıq. Bunun üçün çox gec də olsa, ölkədə bu problemləri (Qarabağ, soyqırımlar və s.) əsaslı şəkildə öyrənən xüsusi elmi mərkəzlər yaratmalıyıq. İnternet saytlarında parlaq adlar olsa da, ayrı-ayrı institutlarda problemlərin müxtəlif tərəfləri öyrənilsə də, bu məsələ ilə bağlı vahid informasiya bazamız yoxdur. Problemin təqdimatında vahid sistem, vahid mövqe və təbliğat metodikası da yoxdur. O səbəbdən hər kəs əlinə keçən fakta və ya tarixi epizoda öz «sərbəst» yozumunu verir. Sistem yoxdursa, belə dağınıq elementlərdən danışmağa dəyməz.

* * *

Daha bir məqam: müasir dünya vizual informasiyaya meyillidir. Adiovizuallıq zamanın dilidir, ifadə vasitəsidir. Bu cəhətdən də geridəyik. Etiraf etmək çox acıdır, amma bu faktdır ki, milli problemlər kontekstində Azərbaycanın son dövr tarixini əks etdirən yığcam və dolğun sənədli filmlərimiz, demək olar ki, yoxdur. Uzun-uzadı filmlər isə eyni məzmunlu qalın kitablar qədər mənasız və darıxdırıcıdır. Məsələn, iki il əvvəl Xocalı soyqırımının yad edildiyi günlərdə, Azərbaycanın 300 mindən çox məktəblisi BMT-yə müraciət ünvanladı. Gecikmiş olsa da, bu addımın mahiyyətində yenilik, ümid və işıq var.

Biz hamımız, nağıllarda deyildiyi kimi, bu işığı tutub getməliyik. Hərçənd ki, nağıllar dövrü çoxdan bitib. Qorxulu divlər çoxdan nağıllardan çıxıb bədheybət insanlara çevrilib, itlər də nəyə və kimə hürməyinin fərqindədir. Bizə qalan işıqdır və biz bu işığa necə çatmağın yolunu tapmalıyıq. Kiçik də, böyük də, şeir deyən uşaq da, elm öyrənən tələbə də, tarixçi-alim də, diplomat da, I Pyotru «ifşa edən» yaşlı müəllim də bunun üzərində düşünməlidir.

*Qulu MƏHƏRRƏMLİ*